# Həyat amalı vətən istiqbalı olan Gülləbatmaz Tacir İskəndərov

**Ülviyyə İskəndərli**
**Azərbaycan Universitetinin III kurs tələbəsi**

**Ölüm sevinməsin qoy!Ömrünü vermir bada!**
**El qədrini canından daha əziz bilənlər,**
**Şirin bir xatirətək qalacaqdır dünyada**
**Sevərək yaşayanlar, sevilərək ölənlər !**

Yazımı xalqımızın dünya şöhrətli şairi, daim vətəninə, xalqına, el-obasına vurğun olan Səməd Vurğunun şeri ilə başladım. Bəli, doğurdan da xalqımızın igid oğulları vətənin azadlığını canlarından əziz tutub ,bu yolda qurban veriblər. Canlarından, qanlarından keçib şəhidlik zirvəsinə ucalıblar. Xalqımızınqəlbləri vətən sevgisiylə döyünən, cəsur , qorxmaz,qəhrəman oğullarından biri də Tacir İskəndərov İsrail oğludur.

Tacir İskəndərov 14 yanvar 1968- ci ildə Hacıqabul rayonu Meyniman kəndində dünyaya göz açıb. Bu kəndə böyüyüb boya başa çatıb.İskəndərovlar ailəsinin 3 oğlu vətənin azadlığı uğrunda könüllü olaraq Qarabağ döyüşlərində fəal iştirak ediblər. Böyük oğul Sakit İskəndərov,kiçik oğul Valeh İskəndərov və Tacir İskəndərov könüllü olaraq cəbhəyə-döyüş meydanına yollanırlar. Sakit İskəndərov daxili qoşunlarda xidmət edib,Valeh İskəndərov Kəlbəcər uğrunda gedən döyüşlərdə,Tacir isə əvvəlcə Füzuli rayonunda gedən döyüşlərdə xidmətə başlayıb. Tacir ilk döyüşlərdə yaralanır, tezliklə sağalıb yenidən döyüş bölgəsinə qayıdır. 1992- ci ilin sentyabr döyüşlərində çiynindən yaralanır. Yaraları sağalandan sonra, qızğın döyüş meydanına atılır. Çox keçmir ki, Tacirin sorağı Ağdərədən, Kəlbəcərdən, Laçından, Qazaxdan, Ağdamdan gəlir. Qorxu nə olduğun bilməyən və əla döyüş təcrübəsi qazanan İskəndərov düşmənə ağır zərbələr endirir. Ağdərə bölgəsində gedən döyüşlərin birində o, qumbaraatanı ilə erməni qəsbkarlarının BMP-sini vurub, sıradan çıxarır. Bu İskəndərovun ilk və son qəhrəmanlığı deyildi. 1993- cü ilin dekabr ayında Ağdamın Mərzili kəndi uğrunda gedən ağır döyüşlərdə düşmənin iki tankını və bir atəş mövqeyini darmadağın edir və özü isə ağır yaralanır. Hərbi həkimlərin müdaxiləsi onu ölümün pəncəsindən qopara bilir. Yaraları sağaldıqdan sonra yene bir cəngavər kimi döyüşlərə atılır. Ondan bu döyüş barədə danışmağını xahiş edəndə deyir:"Ağır döyüşlər idi. Düşmənin texnikası bir- birinin ardınca irəliləyirdi. Bilirdik ki, fürsəti əldən versək itkimiz çox olacaq. Qəfildən yoldaşlarımızla hücuma keçib düşmənin 5 tankını məhv etdik. Alov hər yeri bürüdü. Ermənilər alışan tankları görüb geriyə çəkildilər. İgidliklə vuruşan əskərlərimiz düşmənin xeyli canlı



qüvvəsini də məhv etdi.Bu döyüşdə biz tərəfdən də itki oldu ..."

***İskəndərov söz verir ki, torpaqlarımız düşmən tapdağından təmizlənməyənə qədər silahı yerə qoymayacaq. O, dəfələrlə yaralanmağına baxmayaraq çıxdığı yoldan dönmür. Tacir düşmənin ən qorxulu rəqibinə çevrilmişdir. Artıq bir gülləbatmaz kimi tanınmağa başlamışdır. Onun etdiyi sürətli manevrlər düşməni çaş-baş salır, təhlükədə olan dostlarını ölümün pəncəsindən qoparırdı.***

1994- cü ilin aprel- may aylarında erməni qəsbkarları yenidən Ağdam bölgəsi boyu hücuma başlayırlar Tacir İskəndərov həmşəki kimi bu döyüşlərdə də fərqlənir. May ayının əvvəllərində İskəndərov 30- a yaxın döyüş yoldaşı ilə hücuma keçən erməni qəsbkarları ilə qeyri-bərabər döyüşə başlayır. Düşmənin üstün olan qüvvəsindən çəkinməyən igidlərimiz Tacirin qurduğu hərbi plan əsasında hərəkət edərək düşmənə ağır zərbələr endirir. Tacir özü isə yenədə düşmənin hərbi texnikasını vurub , sradan çıxarır. Bu döyüşdən sonraÇıraqlı kəndi düşməndən təmizlənir.

***İskəndərov təkcə motoatıcı deyildi, həm də istedadlı bir kəşfiyyatçı idi. O döyüşdən əvvəl düşmən mövqelərinə kəşfiyyata çıxır, sonra isə öz silahını işə salırdı.Xidmət etdiyi hissənin bütün kəşfiyyat işlərində Tacirin əməyi əvəzsiz idi. Tacir İskəndərov qızğın döyüşlərdə göstərdiyi igidliyinə görə " Hərbixidmət-lərinə görə " medalı ilə təltif olunub.***

1995 – ci ilin yanvarn 15-də Prezdentin fərmanı ilə İskəndərov Tacir "Azərbaycanın bayraq" ordeni ilə təltif olunur. Bu xəbər Meyniman kəndinə şad xəbər kimi yayılır. Bir neçə günlüyə İskəndərov evlərinə buraxılır.Tacirin keçmiş cəbhə yoldaşı, I Qarabağ döyüşlərində bir ayağını itirmiş həmkəndlisi İnqilab Şirəliyev də bu şad xəbəri televiziyadan eşitdiyini bildirir.

İskəndərov məzun olduğu Meyniman kənd orta məktəbinə 20 yanvar şəhidlərinin 5-ci ildönümü münasibətilə keçirilən hüzn mərasiminə gedir. Söz alıb , çıxış edir. Vətənpərvərlik tərbiyəsində böyük əməyi olmuş müəllimlərinə təşəkkürünü bildirir, gələcəyin əskərlərinə öz tövsiyyələrini verir:"Hər zaman vətən uğrunda mübarizə aparın! Vətənin bütövlüyünü, azadlığını qoruyun!".İskəndərovaldığı ad münasibəti ilə hüzn mərasimində iştirak edən yüzlərlə həmkəndlisinin təbriklərini minnətdarlıqla qəbul edir.

İskəndərov yenidən döyüş bölgəsinə qayıdır. Lakin çox çəkmədi ki, Meyniman kəndinin Tacir sevincli günləri sona yetdi. Sən demə Tacir el-obasıyla vidalaş-mağa gəlibmiş , tövsiyyə deyil, vəsiyyət edirmiş.

1995-ci ilin 6 fevralında Hacıqabul rayon Meyniman kəndinə qara xəbər gəlir... Vətən fədaisi , cəsur döyüşçü, bütün amalı vətənin istiqbalı olan Tacir İskəndərov İsrail oğlu şəhidlik zirvəsinə ucalır... Bu xəbər Hacıqabul elini sarsıdır. Artıq Tacirli günlər bitmişdi... Azərbaycan xalqı özünün daha bir qəhrəman , vətənpərvər, cəsur igidini itirir...



***Tacir İskəndərovun cəsurcasına mübarizə apardığı, qanını tökdüyü torpaqlar 2020-ci ildə ŞəhidTacir İskəndərov kimi qəhrəmanlar sayəsində işğaldan azad edildi.Şəhid Tacir İskəndərovun arzusu igid döyüşçülər tərəfindən həyata keçirildi və şanlı bayrağımız bu gün işğaldan azad edilən torpaqlarımızda dalğalanır. Artıq Şəhid Tacir İskəndərovun şəhidlik məqamına ucalmasından 28 il ötür və hər il 7 fevralİskəndərovlar ailəsi şəhidin ruhunudərin hüznlə anır. Hal-hazırda Meyniman kəndində küçələrin biri Şəhid Tacir İskəndərovun adını daşıyır. Biz bu gün həyatda olanlar Şəhid Tacir İskəndərov kimi igidlərin qəhrəmanlıqlarını unutmamalı , onların xatirəsini əziz tutmalıyıq. Onların qəhrəmanlıqları hər zaman bizim qan yaddaşımızda əbədi olaraq həkk olunub.***